Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# İsa və Zakkay



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Bir gün İsa Yerixodan keçirdi. Bu şəhər uzun illər bundan əvvəl Yeşua tərəfindən dağıdılmışdı.



İndi o yenidən tikilmişdi və orada çoxlu adamlar yaşayırdı. Onların arasında Zakkay da var idi.

Yəqin ki, Yerixodakı digər



adamlar Zakkayı o qədər də çox xoşlamırdılar, çünki o, onlardan pul vergisi toplayırdı. Zakkay pulun bəzi hissəsini dövlətə göndərirdi, amma çox hissəsini özünə saxlayırdı.

Vergiyığanların rəisi olmaq Zakkayı çox zəngin etmişdi. Onun evi yəqin ki,

ƏN BÖYÜK və

ƏN YAXŞI idi.



Amma o, balacaboy idi. Zakkay heç vaxt başqa adamlar qədər boy atmadı.





Zakkay İsanın Yerixoda olduğunu eşidəndə balacaboy vergiyığan Allahın Oğlu olduğunu iddia edən Nazaretdən olan Adamı görmək istədi.



Amma camaat çox idi…
adamlar hündür idi…



Zakkayın bir fikri var idi!  Əgər o, camaatın önünə keçə bilsə… yolun üstünə sallanan ağaca dırmansa… o, İsanı görə biləcəkdi.


Firon ənciri ağacına dırmaşaraq, Zakkay budaqlar arasında rahat bir yer tapdı və İsanı gözləmək üçün orada oturdu.


Yəqin o fikirləşdi:
“Mən buradan
yaxşı görəcəyəm.
Heç kim məni
görmədən mən
Onu görəcəyəm”.

“Zakkay, tez aşağı düş”. Balacaboy vergiyığan öz qulaqlarına inana bilmədi. İsa ağacın altında durdu. İsa ona baxdı. İsa onu çağırırdı!




Əgər Zakkay İsanın onu çağırdığını eşitməyə təəccübləndisə, onda İsanın “Bu gün sənin evində qalmalıyam” ...



... deməsi onu daha çox heyrətləndirdi. Zakkay cəld aşağı endi, o az qala yıxılmışdı.

Zakkay İsanın onun evinə baş çəkəcəyinə görə çox həyəcanlı idi.  Ancaq camaat bunu xoşlamırdı.





Onlar İsanın Zakkay kimi günahlı bir adamın evinə baş çəkməsinə deyinirdilər.







İsa Zakkaya
tam yeni bir
həyat gətirdi.
Zakkay dedi:



“Rəbb,
əmlakımın
yarısını
yoxsullara
verəcəyəm
və kimdən
haqsızlıqla bir
şey almışamsa,
ona dördqat
qaytaracağam”.

İsa Zakkayın yeni həyatından məmnun idi. O, insanların günahdan dönməsini və doğru olanı etməsini görməyi sevir.



İsa dedi: “Bəşər Oğlu itmişləri axtarıb xilas etmək üçün gəlmişdir”. Həmin gün Yerixoda İsa Zakkayı tapdı!



# İsa və Zakkay

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Luka 19

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**